# Yurdum üçün, yuvam üçün ümid göyərir



Tariyel ÜMİD

## Məni göynədir

Yurdum üçün, yuvam üçün ümid göyərir,
Dərmədiyim güllər hanı uzanır əlim.
Ağrılarım, acılarım məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

İnsan özü torpaq, özü ağacda, daşda.
Bahar deyib, diləyibdir qalıbdır qışda.
Qan təküb od göyərib mərmi yağışdan,
Çadra altda qalan xalqım məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

Vaxt olub ki, dinməmişəm susub qalmışam,
Haqq yolunda ölənləri yada salmışam.
Mən azadlıq istəyimdə Vulkan olmuşam,
Doğulmayan inqilabım məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

Açılmayan arzular var qınçədi, daşdı,
Analar var, bacılar var gözləri yaşlı.
Araz kimi misralarım səbrimi aşdı,
Yazıldıqca şeirlərim məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

Nəqmələri susdurulmuş dilim batıbdı,
Yüz illərdi ayrı düşüb bəxtim yatıbdı.
Gör millətim azadlığın nəyə satıbdı,
Ölkə-ölkə müharibələr məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

Kəndlər var ki, küçələri səs-küysüz qalan,
Oğulları, igidləri hər gün azalan.
Ağır-ağır günlərini hey yola salan,
Bu obalar, bu oymaqlar məni göynədir
Qələmimdən damcı-damcı damır ürəyim.

Toydan çıxıb vaya düşən gəlinlər, qızlar,
Yaralı bir göyərçin tək ürəyi sızlar.
Kimdən kimə “siğələnən” bu “vəfasızlar”,...
Puç edilmiş məhəbbətlər məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

Güney boyu səngər ola döyüşəm mən də,
Bu azadlıq eşqim ilə qalmayam gendə.
Alovlanır içindəcə elə bu gün də,
Yanmamağım, ölməməyim məni göynədir,
Qələmimdən damcı-damcı damır ürəyim.

### AZADLIĞI ALMAYINCA

Neçə ildir
üfiqlər  də gülümsəməz
bir məmləkət üzərində,
azdlığı,
səadəti o ölkənin
olmayınca öz əlində
Neçə ildir əsarətin
təməlinə
mübarizlər balta çalar.
Səttarxan tək həyatları,
əməlləri nəğmə olar.
Neçə ildir bir məsləkdən,
bir arzudan
şaxə-şaxə ayrılıqlar
doğulmuşdur.
Neçə ildir xalqımızın
sevincləri
yanaqlarda,
dodaqlarda boğulmuşdur.
Məhəbbət də
ağ gününü gəzir hələ.
Bir məqama bənddiro da,
Ulduz kimi səpələnə.
Sən də bil ki, əziz Vətən,
Qaranlıqlar gözlərimi
bağlayanmaz.
Tarix belə,
zaman belə
.mənim vuran əllərimi
bircə an da
saxlayanmaz!
Əziz Vətən,
fəth edilməz səngər oldun.
Sən vuruşlar meydanında
Sipər oldun.
Bir vulkanam-
bu dünyanla barışmaram.
Azadlığı almayınca,
azadlığım olmayınca,
ölsəm, Vətən,
torpağına qarışmaram.

## Görəcəyik o günü

Döyüşən Vətənim yanar ocaqlı,
Ondan od payını alıbdır hərə.
Mənim qəzəbimin şimşəyi çıxdı,
Şübhələr qırılıb dağıldı yerə.

Al qanı axana söylədim ki, qalx,
Ay oğlum, nahaqdan səni vurublar.
Arxanda gizlənən mollalara bax,
Xalqın taleyinə tələ qurublar.

Ölkə cavanların qəbristanımı?
Vətən nə verdi sənə bu yaşda!
Axıtdın havayı qızıl qanını
Sənə haqq verməyən qanlı savaşda.

Ölənə-qalana şeyx nə verəcək,
Yenə qapıları inqilab açır.
Azadlıq gününü hamı görəcək,
İndidən günəş tək şöləsi saçır.

Saqqallı, təsbehli o mollalar da
Çəkilər yolumdan bir gün gələcək.
Savalan qeyrətli oğullarına
Azadlıq qoynunda yer göstərəcək.

Sənə nə lazımdır alnımdan soruş
Qırışlar alnımın yüzillikləri.
Əgər istəyirsən gəz qarış-qarış,
Alnıma almışam böyük vətəni.

Burda Səttarxanın istəyi də durur.
Qəfildən vurulan şəhid də durur.
Burda Xiyabani ürəyi də var,
Burda hər qayada keçid də durur.

Burda kəndir kimi düyünlü zaman,
Burda nəsil-nəsil itənlər də var.
Burda ölümü ilə hələ yaşayan,...
Burda palıd kimi bitənlər də var.

Qatıb tou gününün edamlarından
Çoxu kitab olub, roman olubdur.
Elə o zamanın adamlarından,
Bəlkə alnımdakı Vətən qalıbdır.

Bir gün də alnımda Araz daşacaq,
Əlimdə tutduğum bu güllər kimi.
Qardaş-qardaş ilə qucaqlaşacaq,
Dənizə qovuşan sahillər kimi.

Sovular yüz ildən qalan niskilim,
Adını tutaram qəhrəmanların.
Qara daşlar kimi qopar pis günüm,
Yaza çağırıram mən insanları.

Oyanan bəxtimsən, şənimsən nəsib,
Tufanlardan çıxıb istədim səni.
Gecələr yatmayıb ömrümdən kəsib,
Alnıma yazmışam, Vətənim səni.

## Urimiyə gölü

Mənim göz yaşlarımdı,
Düşüb yerə, göl olub.
Ahımdır, fəğanımdır,
Lalə olub, gül olub.

Sudur, içməli deyil,
Vurub keçməli deyil.
Adından ad götürüb,
Urumiyə bir el olub.

Şahlara əyilməyib,
Tarix ona dəyməyib.
Bu gün daşıb, kükrəyib,
Milləti sel-sel olub.

Urumiyədə səsim var,
Azadlıq nəfəsim var.
Qoşuldum insanlara,
Arzularım çin olub.

### SÖZÜM VAR

Ey İran dövrü qədim,
Vətənim, məmləkətim.
Hər kəndinə, şəhərinə
Tükənməz məhəbbətim.
Hardadır, azadlığım,
Hardadır hürriyyətim?
Bayrağı dar ağacı,
Həyatı məşəqqətim.
Sözündə, işində yalan,
Təklənər tənha qalar!

“Mollası padişahlıq edən
Ölkə qəbristanlıq olar!”.
Təbrizim Ərk qalası,
Urumuyyənin gölü var.
Əhərin uca dağları,
Zəncanın göyçək gülü var.
Baxın bir haqqı itən,

Nə qədər diri, ölü var,
Harda təhsil alacaq,
Məktəbsiz bu uşaqlar?
Türkə-xər deyəndən...
Neçə müsəlman olar?
“Mollası padişahlıq edən,
Ölkə qəbiristanlıq olar!”

Dalğalı ummandı xalqım,
Qabarıb bu gün coşacaq.
Bir ölkə üsyandı xalqım,
Səbrin kasası daşacaq,
Sürenlə dostluq edən,

İranlı şeytanlaşacaq,
Hərləyib müsəlmanı
Erməni tora salar.
Qorxuram ki, axırda
Məscidlər kilsə olar.
“Mollası padişahlıq edən,
Ölkə qəbiristanlıq olar!”

Üzümü çevirdim xalqıma sarı
Oxudum atama şeirlərimi,
Od tutdu kişini, eynəyin taxdı.
Dedi, bir şeirində vermir yerimi,
Oğul, güclü idim mən cavan vaxtı.

Elə bil gün dünya mənə dar idi,
Dedim, şeir nədi?... Bu kişi bilmir.
Dedi, oğul, mənim səsim var idi,
Heç sənin şeirinin sədası gəlmir.

Dedim, ürək dözmür axı yazmasan,
Gecələr şairin yuxusu gəlmir.
Otçalan olmuşam dedi bir zaman,
Şeirindən gül, çiçək qoxusu gəlmir.

Dedim, ağla könül, yerə əyil sən,
Sən səyyahlar kimi hey axtar, arı...
Dedi, nə olsan da dahi deyilsən,
Çala bilməmisən çaldığın tarı.

Dedim ki, ay ata, insafın varmı,
Mən sözün üstündə zillət çəkmişəm.
Dedi, Vətənsiz də şair olarmı,
Sən sözün üstündə yuva tikmisən.

Ağlayan bir neyəm, dinən kamança,
Neynirəm dövləti, neynirəm varı.
Savalandan uca, Səhənddən uca,
Üzümü çevirdim xalqıma sarı.

